Mərkəzi Seçki Komissiyasının bəzi normativ xarakterli aktlarına dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

# Q Ə R A R I

“Media haqqında” Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (bundan sonra – Mərkəzi Seçki Komissiyası) “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun 75.2-ci, 78.2-ci, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **q ə r a r a  a l ı r :**

1. Mərkəzi Seçki Komissiyasının 2008-ci il 18 iyul tarixli 7/27-8 saylı Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prezidentinin seçkilərində kütləvi informasiya vasitələri ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında Təlimat”da aşağıdakı dəyişikliklər edilsin:

1.1. Preambulada “Kütləvi informasiya vasitələri haqqında” sözləri “Media haqqında” sözləri ilə əvəz edilsin;

1.2. 3.2-ci bənddə “Milli Televiziya və Radio Şurasının” sözləri “Azərbaycan Respublikası Audiovizual Şurasının” sözləri ilə əvəz edilsin.

2. Mərkəzi Seçki Komissiyasının 2009-cu il 8 yanvar tarixli 1/4-1 saylı Qərarı ilə təsdiq edilmiş “Kütləvi informasiya vasitələri ilə referendumqabağı təşviqatın aparılması qaydaları haqqında Təlimat”da aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1-ci bəndin ikinci abzasında “Kütləvi informasiya vasitələri haqqında” sözləri “Media haqqında” sözləri ilə əvəz edilsin;

2.2. 3.4-cü və 3.5-ci bəndlərdə “Milli Televiziya və Radio Şurasının” sözləri “Azərbaycan Respublikası Audiovizual Şurasının” sözləri ilə əvəz edilsin.

3. Mərkəzi Seçki Komissiyasının 2009-cu il 24 avqust tarixli 23-7 saylı Qərarı ilə təsdiq edilmiş “Bələdiyyə seçkilərində kütləvi informasiya vasitələri ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında Təlimat”da aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bəndin ikinci abzasında “Kütləvi informasiya vasitələri haqqında” sözləri “Media haqqında” sözləri ilə əvəz edilsin;

3.2. 3.1-ci bənddə “Milli Televiziya və Radio Şurasının” sözləri “Azərbaycan Respublikası Audiovizual Şurasının” sözləri ilə, 3.2-ci bənddə “Milli Televiziya və Radio Şurasının” sözləri “Audiovizual Şurasının” sözləri ilə əvəz edilsin.

4. Mərkəzi Seçki Komissiyasının 2010-cu il 23 iyul tarixli 15/58-14 saylı Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə kütləvi informasiya vasitələri ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında Təlimat”da aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.1-ci bəndin ikinci abzasında “Kütləvi informasiya vasitələri haqqında” sözləri “Media haqqında” sözləri ilə əvəz edilsin;

4.2. 3.2-ci və 3.13-cü bəndlərdə “Milli Televiziya və Radio Şurasının” sözləri “Azərbaycan Respublikası Audiovizual Şurasının” sözləri ilə əvəz edilsin.

5. Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində bu Qərarın rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etsin.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |